**İqtisadiyyatın gələcək inkişaf sektoru: qeyri-neft sənayesi**

*«Azərbaycanda sənayeləşmə prosesi sğrətlə getməlidir və biz bunu görürük. Mənim iştirakımla bölgələrdə 500-ə qədər sənaye mğəssisəsi azılmışdır».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

İqtisadi İnkişaf Nazirliyi Sumqayıtdan sonra Gəncədə sənaye texnoparkının yaradılması üçün hazırlıqlara başlayıb. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Gəncədə alüminiumyönümlü texnopark yaradılması nəzərdə tutulub. Sənaye parkının yaradılmasında məqsəd yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır.
«Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, Azərbaycanda sənaye sektoru çox sürətlə inkişaf edir və iqtisadiyyatın əsas milli gəlir gətirən perspektiv sahəsinə çevrilməkdədir: «İndi bu ilin birinci ayının yekunları da onu göstərir - qeyri-neft sənayesi 10%-dən çox artmışdır. Çox güclü sənayeləşmə prosesi gedir. Mən bu məsələ ilə bağlı bir neçə il əvvəl danışmışdım. Demişdim ki, Azərbaycanda sənayeləşmə prosesi sürətlə getməlidir və biz bunu görürük. Mənim iştirakımla bölgələrdə 500-ə qədər sənaye müəssisəsi açılmışdır». Dövlət başçısı son illərdə ölkəmizdə 40 mindən çox yeni sənaye müəssisəsinin yaradıldığını yüksək qiymətləndirmişdir.
Ümumiyyətlə, son illərdə regionlarda istifadəyə verilən müəssisələrin istehsal gücünü artırması və yeni rəqabətqabiliyyətli məhsulların buraxılışı sənaye sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artmasına səbəb olmuşdur. Qeyri-neft-qaz sənayesinin ümumi sənaye məhsulunda payı isə daha çox artıb. Son 4 ildə qeyri-neft-qaz sənayesində 30%-dən çox artım qeydə alınıb. 2011-ci ildə bu sahədə ən yüksək artım tempi müşahidə olunub (11,1%). Ötən il istehsal edilmiş 50,1 milyard manatlıq ÜDM-in 48,3 %-i və ya 24,2 milyard manatı qeyri-neft-qaz sektorunun payına düşüb ki, onun da 5,7 milyard manatlıq hissəsi sənaye məhsullarıdır. Qeyri-neft-qaz sənayesinin əsas inkişaf etmiş sahələri kimi emal, kimya, metallurgiya, yüngül və yeyinti sənayesi, tikinti materialları bölmələri daha çox diqqəti cəlb edir.
Qarşıdakı onillikdə respublikamızda 500-dən artıq yeni sənaye müəssisəsinin yaradılması nəzərdə tululur. Onların əsas hissəsi iri sənaye mərkəzləri olmaqla iqtisadiyyatın inkişafında xüsusi rol oynayacaq. Xüsusilə də sənaye texnoparklarının ərazisində yaradılacaq bu müəssisələrin əsas profili ixracyönümlü iqtisadiyyatın stimullaşdırılmasına xidmət edir. Yəni dövlət beynəlxalq standartlara cavab verən rəqabətqabiliyyətli sənaye məhsullarını dünya bazarına ixrac etməklə valyuta gəlirlərini artıra biləcək. Bu məqsədlə yeni sənaye mərkəzlərinə investorların cəlb olunması üçün ölkədə daha əlverişli biznes imkanları yaradılacaq. Digər tərəfdənsə, dövlət öz maliyyə dəstəyini gücləndirməklə yanaşı, xarici investorların cəlb olunması üçün bir sıra cəlbedici şərtlər tətbiq etməyi də nəzərdə tutur.
İqtisadi İnkişaf Nazirliyinin sosial-iqtisadi inkişaf proqnozlarına əsasən, qarşıdakı 5 ildə qeyri-neft sənayesində ümumilikdə 40%-dən çox artım olacaq. Bu sahə üzrə 2012-ci ildə 9,2%, növbəti 3 ildə isə orta hesabla 10,5% artım proqnozlaşdırılır. Sənayenin əsas aparıcı bölməsi olan kimya sənayesində daha çox artım gözlənilir. Növbəti illər üçün proqnozlaşdırılan göstərici bu sahədə fəaliyyət göstərən müəssisələrin istehsal güclərinin artırılması, modernləşdirilməsi və eləcə də yeni məhsul istehsalına başlanılması hesabına təmin ediləcək. Belə ki, kimya sənayesində 2012-ci ildə 20,8%, növbəti 3 ildə isə orta hesabla 19,6% artım proqnozlaşdırılır. Bununla yanaşı, qeyri-neft sənayesinin metallurgiya və emal bölmələrində də illik 6-7% artım gözlənilir.

**E.CƏFƏRLİ**